# ...Biz "ədəbiyyat vəkilləri"nin, "istedad barometrləri"nin ağabəylərini yaxşı tanıyırıq

**"Ədəbiyyat və incəsənət" portalının əməkdaşı Kənan Məmmədli portalın redaktoru, tanınmış şair-publisist Əkbər Qoşalıdan geniş müsahibə götürüb. Ədəbi camеədə rezonans doğuran müsahibəni kiçik ixtisarla oxucularımızla bölüşürük:**

***-...Əkbər bəy, yaradıcılığınız 2025-ci ildə necə göründü, nə yazdınız, nə oxudunuz, yaxud oxutdunuz?***

-Udmurtiyanın Xalq yazıçısı Vyaçeslav Ar-Serginin, Tatarıstanın Əməkdar incəsənət xadimi, şair-tərcüməçi Lenar Şeyxin, Qazax şairi Sayat Kamşıgerin kitablarını yayına hazırladıq və hər üç kitabın nəşri geniş mətbu reaksiya gördü. Ədəbi-mədəni bağların gücləndirilməsi, ədəbiyyatımıza, ölkəmizə yeni dostlar qazandırılması, yeri gələndə onların müxtəlif platformlarda bizim haqq sözümüzü deməsi - bax, bunlar bizə özümüzün yazdığımız əsərlər qədər zövq-səfa verir.

Bu il içində ilin, bəlkə illərin dışına çıxan yeni şeirlər, publisistik yazılar, ədəbi, kulturoloji məqalələr və müsahibələrimiz yayınlandı; aparıcısı olduğum "Türk yurdu" verilişinin MədəniyyətTV-də 20-ə yaxın buraxılışı efirə getdi, "Qursalı TV"nin "Türk ellərinin izi" proqramının ilk qonağı oldum, verilişin davamlılığı üçün öz töhfələrimi verməyə çalışdım, "Hədəf" milli təhsil brendinin və Turan Akademiyasının öncüllüyündə yaranan "Balabilgə Akademiyası"nın qurucu-üzvü seçildim və bunların az qala hər biri haqqında sanballı reaksiyalar aldım; belə reaksiyalar ictimai fikrə nə ötürdüyümüz, ictimai fikrin nə götürdüyü və nə tələb etdiyi barədə mənzərəni daha da aydınladır.

...Biz ümumiyyətcə ictimai fikrin düzgün qidalanmasına da, oradan gələn impluslara da diqqətsiz qalmamağa çalışırıq. Halımız insanlıq halıdır - gah Aşıq Veysəl demiş, "uzun, incə bir yoldayam, yürüyürəm 'gündüz-gecə", gah da Nəcib Fazil demiş "su enər yoxuşlardan, hey basamaq-basamaq, mənimsə alın yazım, yoxuşlarda susamaq" - olur...

***-Qardaş ölkənin başqa bir şairi Can Yücel isə "Mənim halım məmləkətin halı" deyir. ...Növbəti sualımı verim. Sizin ən müxtəlif məsələlərə münasibətdə təmkinli, ağayana duruşunuz ədəbi çevrələrdə təqdirlə qarşılanır ...bəs ...əslsiz tənqidlərə, qarayaxmalara soyuqqanlı cavablarınız yaxud ümumən cavab verməməyiniz, intriqalardan uzaq durmağınız - çətin deyilmi?***

-Yenə bir türk şairinin - bu dəfə "ayrılıq sevdaya daxil" deyən Atilla İlhanın təbirincə söyləsək, çətinlik həyata daxil... Bilirsiz, mən bayaq "ictimai fikrdən gələnlər" deyəndə konstruktiv, qərəzsiz geridönüşləri nəzərdə tuturdum; yoxsa, hər ...qoltuğunda çörək gəzdirənin nə cızma-qara etməsi bizim mövzumuz deyil, əlbəttə. Özəlliklə də dərisigödək, özü plintusdan aşağı olan nəfərlər qadın heylağısa, ...uşaq-muşaqsa ...onlarla muhatab olmuram. ...Qərəzdən, qısqanclıqdan, paxıllıqdan partlayan



nəfərlərin topasına arada-sırada bir-iki cümlə yazaram, onlar o cümlələrlə bir müddət uğraşar, əgər yenidən baş qaldırarlarsa, yenə yığıb-yığıb topasına bir "mərmi" ataram, vəngiltiləri bayırşəhərdən, şəhərətrafından eşidilər. - Mərmini də sözgəlişi demirəm ha, mən əlahiddə artilleriya briqadasında zabit olmuşam; rus demiş "malakalibr"li və ordudan yayınmış, ümumən yaxşı, xeyirxah nə varsa onlardan da yayınmış, qalib Azərbaycanda özlərini ...çox rahatsız hiss edən, fərari, paranoid "tənqidçi"lərlə bizim məsələlərə baxışımız eyni ola bilməz. ...Bəli, biz, ikimizin də ...nəzərdə tutduğumuz nəfərlərin ağır dönəmdən keçdiyini görürük. Əslində, onlara kömək etmək lazımdır. Doğrusu, mənim onlarla çənə döyməyə vaxtım, həvəsim yoxdur, tərbiyə əziyyətinə isə kim qatlanmalısa "qoy onlar qatlansın, mənim işim deyil.

***-...Bəs daha öncələr qərəzli və dırnaqiçi tənqidlərlə üzləşəndə necə bir texnologiya, metod tətbiq edirdiniz?***

-Bir ara mənə qarşı kim nə yazırdısa, isti-isti yazılı da cavab verir, uyğun bildiklərimə zəng açır, söhbət edirdim. - Bu, əsasən 25-35 yaşlarımda olurdu. Sonralar önəmsimeyim xeyli azaldı, yalnız seçdiklərimə cavab verməyə başladım. ...Hətta, bir ara əleyhimə kim harda nə yazmışsa toplayır, bir növ arxivləşdirirdim; uçot aparırmış kimi bir intiqam iqlimi içində olduğum dönəmlər vardı. Bir dəfə bir könül süfrəsində Vaqif Bayatlı Odər ona ünvanlanan suala cavab verərkən təqribən belə bir cümlə qurdu, bəs mənim yaddaşım zibil qutusu deyil, mən orada yalnız yaxşı hadisələri, qızıl adamları, urvatlı adları saxlayıram. ...Bu yanaşma çox xoşuma gəldi və düşünüb-daşındıqdan sonra mən də ...müvafiq olaraq zir-zibildən təmizlənmə aksiyası keçirdim; "arxiv"i əməllicə təmizlədim. Sonra ay-il içində baxdım, yeni, yaxud təkrar hərzə-hədyan edənlərin də bir növ "uçot"u gedir, ...daha yeni bir metodla çıxış etdim; ...bəli, dedim, cəbhədəki hər uğurumuza bir uğursuzu bağışlayacam. - O illər öncəbhədə qarışıqlıqlar tez-tez olurdu, düşmənin quduğanlığı, meydan oxumağı sınır tanımırdı; biz də xidmətdə ya ehtiyatda olmağımızdan asılı olmayaraq, zabit kimliyimizin ruhi gücündən uzaqda deyilik, təbii. Üstəlik, sınırboyunda yerləşən kənddə böyümüşəm, hələ ...7-ci sinif şagirdiykən, ermənilərin bizim qəbristanlıqdan bir az yuxarıdan çəkdiyi tikanlı məftilli ayrıcı zolağın dağıdılmasında ...iştirak etmişəm. O zaman bir-biri ilə küsülü olan kəndçilərimizin də necə birlikdə çalışdığını minnətdarlıqla xatırlayıram. - Uzun sözün qısası, dedim, şəxsi olaraq qarşıdurmada olduqlarımı bağışlayacam - bunu özüm biləcəm, bir də Tanrım; yaramazlar da qabiliyyətləri çatıb qanar qanar, qanmaz da, ...Vətən sağ olsun. ...Biz öz taleyimizi Vətənin taleyindən qıraqda sanmayan insanlardanıq. Biz ölkəmizdən qıraqda bir neçə gündən sonra dözülməz dərəcədə darıxan insanlardanıq. ...İdeya baxımından bizə qarşı olanlarsa, ilk imkanda ...dışarıdan nifrin, söyüş yağdıramaqla boğaz otaranlara qoşulmaqçün amadə deyillərmi?

...Beləliklə, ordumuz torpaqlarımızı azad etdi, haqqında danışdıqlarımızın bəzilərini öz dünyamızda, necə deyərlər, əfv və amnistiyaya salmış olduq. - ...Qarşılaşanda salam verdik, salamlarını aldıq və s. Bəlkə onlar da təəccüb etdi ki, bu nə dəyişiklikdir belə?

***-...Siz intiriqalarda iştirak etmirsiz, bəli; ancaq biz bilirik, hətta yaxşılığınız keçmiş, yaxud pislik etmədiyiniz adamlar da bəzən sizin ideya yolunuza, yaradıcılığınıza dil uzadır***

-Bax, bayaq vurğuladığımız olaylarda mən xeyli savadsız, bəsirətsiz dəvəquşu xislətli dələduzla rastlaşmışam; başını soxub sosial media kolluğuna, "təyin olunmuş" yeri çöldə apaçıq qalıb, ...hər yazdığı cümlə, yazmadıqlarını ələ verir. - ...Hirs-hikkə savada, məntiqə yer qoymur axı; olan-qalan, ağılabənzər nə vardısa, əsassız nifrət onları da sıfırlayır. ...Bunları ona görə deyirik, şəxsi planda nə vaxt, harda və necə zərər verdiyimizi ...xatırlamadığımız ..."yazarlar", "gənclər", "ədəbi tənqidçilər" pırtdaşıb atılır ortaya və dəridən-qabıqdan çıxır ki, biz onlara adlı cavab verək. - Cavab birdir: harda, necə və nə vaxt zərərdidə olublarsa, bizə bildirsinlər, ...fakt öz təsdiqini tapsa, dəymiş ziyanı ödəyərik.

...Necə ki din tüccarları, məzhəb vəkilləri, nə bilim demokratiya və s. dəllalları, ..."əsl müxalifət sertifikat"ı verənlər kimi bir sürü "ədəbiyyat vəkili", "istedad barometri" də var. ...Biz "ədəbiyyat vəkilləri"nin, "istedad barometrləri"nin ağabəylərini yaxud bu yolu, daha doğrusu, yolsuzluğu daha öncə getmişləri yaxşı tanıyırıq, aqibətlərinə bələdik, etiraflarını ...bilirik. Beş-on manatdan, hansısa mənfəətdən ötrü ədəbiyyat, mədəniyyət adından sui-istifadə etmək hələ heç kimə başucalığı gətirməyib. Yaşı irəlilədə də, yeniyetmə ...qalanlar qəti tələsməsin, təntiməsin, qoltuqlarında çörək dolansın; onlara hələ çox "şad xəbər"imiz olacaq.

...Əgər biz təriqət öndəri, partiya başqanı, biznesmen olsaydıq, ...yaxud yüksək dövlət vəzifəsi daşısaydıq, müxtəlif kateqoridən olan, "həftə, səkkiz, mən doqquz" deyib ortalığa düşənləri ...görüşə çağırmağı, onların qarnının ağrısını öyrənməyi özümüzə ar bilməzdik; indi isə buna ehtiyac yoxdur.

***- ...Bu arada, deyirəm, yaxşı ki, indilər ötən əsrin 37-ci illəri deyil, eləmi?***

-37-ci il olsaydı, indiki "könüllü NKVD-çilər" bizim yaradıcılığımızı ..."incələyib" anti-Sovet, pantürkçü, panturançı əsasıyla Sibirə sürgünə göndərər, ...güllələdərdi. Müşfiqin, Cavidin başına gələnləri bizim başımıza gətirməyə çalışardılar. İnandırım sizi, ...Türk dünyası ilə, Azərbaycanımızla, milli ədəbiyyatımız-mədəniyyətimizlə bağlı bizə qarşı olanların böyükləri 30-cu illərdə şərin tərəfində olub. ...100 il öncələr "XI Qızıl Ordu"nun yoluna gül-çiçək səpənlərin törəmələri, mənəvi övladları əgər "XII Qızıl Ordu" yolu gözləyirsə, ...gözləri yollardan yığılsın: gəlməyəcək, gələ bilməyəcək!

...Türk düşmənçiliyi, ramizmehdiyevçilik zatıqırıqların mandat-missiyasıdır. ...Ancaq Türk dünyası güclənəcək, ortaq türk qurumları güclənəcək, qalib Azərbaycan Türk dünyasının altun körpülərinin keçdiyi ...ocaqlama ölkə olacaq yenə. ...Yollu yolunda, yolsuz kolluğunda.

...Bizi müdafiə etdiyimiz liderə görə tənqid edənlər siyasi liderimizin təyin etdiyi nazirlərə, nazirdən də kiçik vəzifəlilərə tapındılar. ...Türk dünyası ilə bağlı qurum-quruluşların tədbirlərinə, ölkəmizin humanitar işə məsul bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının ...tədbirlərinə baxın - görün, dövləti, xalqı, mədəni irsimizi öz kəmağıllarınca kiçik görən, gözdənsalmağa çalışanlar indi necə "ağıllanıblar" və mənəvi, əxlaqi haqları çatmadığı halda, hər şansdan necə faydalanırlar. İndi belələrini özünə örnək alanlar da elə sanır, ...nəyəsə nail ola bilərlər. Yeni onların əsl mövzusu ədəbiyyat, mədəniyyət deyil, ...yıxılmağa yer gəzməkdir. ...Biz Turan yolunda bacardığımız qədər ...xidmətdəyik; hətta lap sıravi olaq, ancaq ideya sıravi, növbətçi deyil və ola da bilməz.

***-...Bəs ədəbi mühitin gələcək perspektivlərini necə görürsünüz?***

- Ədəbi prosesdə ciddi potensial var, amma bu potensialın gerçəkləşməsi üçün iki şərt vacib görünür: birincisi, oxu mədəniyyətinin güclənməsi; ikincisi, yazı intizamının formalaşması. ...Ədəbiyyat həm məsuliyyət, həm sənətkarlıq, həm də nəfəs istəyir. Övliyalar demiş, nəfəsi olana buğda vermək, buğda istəyənə nəfəs vermək düzgün sayılmaz

**("Könül coğrafiyamızın bütövlüyü, mədəniyyətimizin suverenliyi tam bərpa olunubmu?"; 15.12.2025)**